

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 32 (23.919)

*17 fevral 2022-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).
2. "Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 16 fevral 2022-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 16 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Dövlət Ehtiyatları Agentliyi (bundan sonra – Agentlik) muxtar respublikada dövlət və səfərbərlik ehtiyatlarının yaradılması və idarə olunması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə strateji əhəmiyyətli mallarla təchizatı təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində (bundan sonra – müvafiq sahə) tədbirlər görən, habelə Dövlət Taxıl Fondunun sərəncamçısı olan publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Nizamnaməni və digər normativ-hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət əhəmiyyəti daşıyan fəaliyyətlə məşğul olur.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.6. Agentlik Naxçıvan şəhərində yerləşir.

### 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. dövlət və səfərbərlik ehtiyatlarının yaradılmasını, yerləşdirilməsini, saxlanılmasını, yenilənməsini (əvəzlənməsini), idarə olunmasını və mühafizəsini təmin etmək;

2.1.4. Dövlət Taxıl Fonduna taxılın tədarük edilməsini, saxlanılmasını və yenilənməsini (əvəzlənməsini) həyata keçirmək;

2.1.5. dövlət və səfərbərlik ehtiyatlarının yaradılması üzrə dövlət sifarişinin hazırlanması ilə bağlı tədbirlər görmək;

2.1.6. muxtar respublikanın strateji əhəmiyyətli mallarla təchizatının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması istiqamətində tədbirlər görmək;

2.1.7. müvafiq sahə üzrə qüvvədə olan normativ-hüquqi aktlara əməl edilməsinə nəzarəti həyata keçirmək, fəaliyyəti əlaqələndirmək, monitorinqlər aparılmasını təşkil etmək və proqnozlaşdırmada iştirak etmək.

### 3. Agentliyin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ-hüquqi aktların və proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə dövlət və səfərbərlik ehtiyatlarının çeşidi və həcmi barədə tələbatı öyrənmək və həmin ehtiyatların yaradılması məqsədilə dövlət sifarişinin hazırlanması üçün tədbirlər görmək, o cümlədən müqavilələr bağlamaq;

3.1.3. dövlət və səfərbərlik ehtiyatları ilə təminatın yuxarı və ya aşağı həddinə dair, eləcə də onların idarə olunması ilə bağlı təkliflər vermək;

3.1.4. dövlət və səfərbərlik ehtiyatlarının növü nəzərə alınmaqla saxlanılmasını və mühafizəsini təmin etmək;

3.1.5. dövlət orqanları (qurumları), habelə müqavilə əsasında sahibkarlıq subyektləri tərəfindən dövlət və səfərbərlik ehtiyatlarının yaradılması, saxlanılması, vaxtında yenilənməsi (əvəzlənməsi) və istifadəsi ilə bağlı dövlət sifarişlərinin icrasını təmin etmək;

3.1.6. dövlət və səfərbərlik ehtiyatlarının uçotunu təşkil etmək, həmçinin onların zəmanət və yararlılıq müddətlərinin nəzarətdə saxlanılmasını təmin etmək, bu məqsədlə müntəzəm olaraq həmin ehtiyatların yenilənməsi (əvəzlənməsi) ilə bağlı tədbirlər görmək;

3.1.7. dövlət və səfərbərlik ehtiyatlarına münasibətdə kəmiyyət və keyfiyyət nəzarətini həyata keçirmək, habelə mülkiyyət formasından asılı olmayaraq, dövlət və səfərbərlik ehtiyatlarının saxlanılma yerlərində həmin ehtiyatların yaradılması, saxlanılması, yenilənməsi (əvəzlənməsi) və istifadəsi zamanı normativ-hüquqi aktların tələblərinə əməl edilməsinə nəzarət etmək;

3.1.8. dövlət və səfərbərlik ehtiyatlarının yenilənməsi (əvəzlənməsi) zamanı yenilənən (əvəzlənən) malların dövlət orqanlarının (qurumlarının) ehtiyaclarının ödənilməsi üçün satışını təşkil etmək;

3.1.9. dövlət və səfərbərlik ehtiyatlarının satınalınması ilə bağlı qanunvericiliyin tələblərinə uyğun olaraq tədbirlər görmək;

3.1.10. strateji əhəmiyyətli malların siyahısı ilə bağlı təkliflər vermək, istehlak bazarının həmin mallarla təmin edilməsi vəziyyəti baxımından daxili və xarici bazarları mütəmadi monitorinq etmək və qiymətlərin kəskin dəyişməsi risklərini müəyyən etmək;

3.1.11. muxtar respublikanın strateji əhəmiyyətli mallarla təchizatının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısının alınması məqsədilə tədbirlər görmək;

3.1.12. fövqəladə hadisələrin və onların nəticələrinin aradan qaldırılması, habelə humanitar yardım məqsədilə dövlət ehtiyatlarından istifadə edilməsi ilə bağlı təkliflər vermək;

3.1.13. aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, dövlət və səfərbərlik ehtiyatlarının saxlanılma yerlərinin siyahısını təsdiq etmək və buna uyğun olaraq tədbirlər görmək;

3.1.14. mülkiyyət formasından asılı olmayaraq, muxtar respublika ərazisi üzrə dövlət və səfərbərlik ehtiyatlarının saxlanılma yerlərinin optimal bölüşdürülməsi, genişləndirilməsi və yenilərinin yaradılması ilə bağlı təkliflər vermək;

3.1.15. dövlət və səfərbərlik ehtiyatlarının mövcud vəziyyəti və yenilənməsi (əvəzlənməsi) ilə bağlı hesabat formasını hazırlamaq və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

3.1.16. qanuna uyğun olaraq, Dövlət Taxıl Fonduna sərəncam vermək;

3.1.17. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.18. fəaliyyət istiqamətləri üzrə elektron xidmətləri qanunvericiliyə uyğun olaraq təşkil etmək;

3.1.19. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə qanunvericiliyə uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.20. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ-hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Agentliyin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.21. Agentliyə ayrılan dövlət büdcəsi vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.22. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.23. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.24. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.25. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.26. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ-hüquqi aktların layihələrinin qəbul olunması, aktlarda dəyişiklik edilməsi, aktların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təkliflər vermək;

3.2.2. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.3. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.4. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.5. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq;

3.2.6. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.7. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.8. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Agentliyin idarə olunması

4.1. Agentliyin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

4.2. Direktor Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

4.3. Direktorun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır.

4.4. Direktorun müavini direktor tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

4.5. Direktor aşağıdakı səlahiyyətlərə malikdir:

4.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

4.5.2. Agentliyin fəaliyyətinə dair icrası məcburi olan əmrlər və göstərişlər verir;

4.5.3. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.5.4. növbəti il üçün dövlət büdcəsinin layihəsinə daxil etmək məqsədilə dövlət ehtiyatları sisteminə aid ediləcək xərclərin strukturu və məbləği barədə təkliflər hazırlayır;

4.5.5. Agentliyin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.5.6. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.5.7. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir, Agentliyin maddi-texniki bazasının möhkəmləndirilməsi barədə aidiyyəti üzrə təkliflər verir;

4.5.8. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr

*Ardı 2-ci səhifədə*

bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.5.9. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.5.10. Agentliyin səlahiyyətlərinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində iştirak edir, müvafiq orqan və qurumlarda Agentliyi təmsil edir;

4.5.11. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını, müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

4.5.12. qanunvericiliyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

**5. Agentliyin əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin əmlakı təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, qrantlardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.2. Agentlik öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

5.3. Agentlik qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

**6. Agentlikdə uçot və hesabat**

6.1. Agentlik qanunvericiliklə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə və statistik hesabatları tərtib edir.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim edilir.

**7. Agentliyin yenidən təşkili və ləğvi**

Agentliyin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 16 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin STRUKTURU

Naxçıvan Muxtar Respublikası Dövlət Ehtiyatları Agentliyinin Aparatı.



# Naxçıvan turizmi

## Muxtar respublika cəlbedici bölgəyə çevrilib

*Qədim insan və mədəniyyət məskəni, təbii sərvətlər muzeyi olan, "Şərqin qapısı" adlandırılan Naxçıvanın həm də böyük turizm potensialı var.*

Təbiət bu ulu diyarımızdan öz səxavətini, təbii gözəlliklərini əsirgəməyib. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, mineral suları, təbii sərvətləri, o cümlədən zəngin maddi və mədəni irsi, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir tərəqqisi muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca amillərdir. Təsadüfi deyil ki, böyük inkişaf yolu keçən muxtar respublikada turizmin ümumi daxili məhsulda rolu düzgün dəyərləndirilib və müasir çağırışlara cavab verən turizm infrastrukturu yaradılıb. Naxçıvan Muxtar Respublikasına səfərimiz zamanı bölgənin turizm infrastrukturunun bir qismi ilə tanış olmaq imkanımız da yarandı.

### *Dünyanın ən yaxşı 50 mərkəzindən biri*

Artıq neçə onilliklərdir ki, turizm bir sıra ölkələrin milli gəlirlərinin formalaşmasında əsas sahələrdən birini təşkil edir. Bu baxımdan hazırda turizmin inkişafı, daha çox turistin cəlb olunması yerləşmə coğrafiyasından asılı olmayaraq, dünyanın bir çox ölkəsi tərəfindən təşviq olunur. Azərbaycan tarixən turizm baxımından əlverişli məkan kimi fərqlənib. Prezident cənab İlham Əliyevin inkişaf siyasətinin məqsəd və məramına uyğun olaraq bu potensialdan səmərəli istifadə edilməsi Azərbaycanda dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilməklə iqtisadi tərəqqi və yüksəlişin mühüm amili kimi nəzərdən keçirilir.

Bütün bunlar Naxçıvan Muxtar Respublikasında da diqqət mərkəzində saxlanılır. Muxtar respublikanın turizm potensialının hərəkətə gətirilməsi, müxtəlif növlərin yaradılması, bu sahədə sahibkarlığın inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması üçün son illərdə məqsədyönlü işlər görülüb. Muxtar respublika rəhbərinin səyləri ilə qədim diyarda həyata keçirilən quruculuq işləri, müalicə mərkəzlərinin yenidən qurulması turizmin inkişafına təkan verib, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artıb. "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması turizmin inkişafında yeni mərhələnin əsasını qoyub. Muxtar respublikanın Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvanın son illərdə beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etməsi, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması və ölkəmizin Gənclər Paytaxtı seçilməsi respublikamızın bu bölgəsinin turizm imkanlarını nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Görülən işlərin nəticəsidir ki, Londonda nəşr edilən "Wanderlust" jurnalında Naxçıvan Muxtar Respublikası dünyanın ən yaxşı 50 turizm mərkəzindən biri kimi qeyd olunmuşdur.

### *Mükəmməl infrastruktur yaradılıb*

Öncə onu qeyd edək ki, Naxçıvan Muxtar Respublikası turizmin inkişafını şərtləndirən əsas göstəricilərə, ilk növbədə, mükəmməl nəqliyyat infrastrukturuna malikdir. Təsadüfi deyil ki, turist məmnunluğunu səciyyələndirən xidmətlərdən biri də nəqliyyat xidmətidir. Naxçıvanın inkişaf konsepsiyasına uyğun olaraq burada ən müasir standartlara cavab verən nəqliyyat infrastrukturu qurulub.

Bu gün Naxçıvan Beynəlxalq



Hava Limanından Bakı, Gəncə, İstanbul, Moskva şəhərləri istiqamətlərində uçuşlar həyata keçirilir. Muxtar respublikada 5 avtovağzal var. Naxçıvan şəhərindən muxtar respublikanın bütün yaşayış məntəqələrinə avtobus marşrutları işləyir. 24 saat taksi xidməti göstərilir. Naxçıvan şəhərində turist marşrutu da fəaliyyət göstərir.

Naxçıvanın nəqliyyat baxımından əsas göstəricilərindən biri də muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollarla getməyin mümkün olmasıdır. Nəinki respublika əhəmiyyətli avtomobil yolları, o cümlədən rayonlararası, kəndlərarası şose yolları yenidən qurulub. Vaxtilə yolu olmayan yaşayış məkanlarına yeni yollar çəkilib.

Bütün bunlarla yanaşı, Naxçıvanda tamamilə yeni, beynəlxalq standartlar səviyyəsində hotel infrastrukturu formalaşdırılıb. İndi Naxçıvan şəhərində və muxtar respublikanın əksər rayonlarında turistlərə yüksək səviyyəli xidmətlər göstərən mehmanxanalar fəaliyyət göstərir. Konkret rəqəmlərlə ifadə etsək, muxtar respublikada 21 mehmanxana və mehmanxana tipli müəssisə fəaliyyət göstərir. 5 ulduzlu "Təbriz" və "Duzdağ" hotelləri, "Saat Meydanı" Turistik İstirahət Mərkəzi, Ağbulaq İstirahət Mərkəzi və digər turizm obyektlərində yüksəkkeyfiyyətli xidmətlər təklif olunur. Naxçıvana gələn turistlər büdcəsinə uyğun istirahət məkanı seçməkdə hər hansı çətinliklə üzləşmirlər.

Fasiləsiz təbii qaz və elektrik enerjisi verilişinin olması, yüksək səviyyəli rabitə xidmətinin yaradılması, sürətli



internetin istifadəyə verilməsi də muxtar respublikada turizmin inkişafını şərtləndirən amillər sırasındadır.

Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla yanaşı, sabitliklə də bağlıdır. Bu iki amilin muxtar respublikada mövcudluğu, qədim diyarın təhlükəsiz region olması turistlərin səfər etməsi və turizmin inkişafı üçün əlavə üstünlüklər



yaradır.

### *Müalicə və sağlamlıq turizminin unikal ünvanı*

Naxçıvan təbiətinin özəllikləri bu diyarda müalicə turizminin inkişafına geniş imkanlar yaradır. Bu baxımdan Duzdağ Fizioterapiya Mərkəzi artıq uzun illərdir ki, nəinki Azərbaycanda, ölkə hüdudlarından kənarda da fərqli bir müalicə mərkəzi kimi tanınır və muxtar respublikanın turistlər üçün cəlbediciliyini artırır.

Xatırladaq ki, unikal müalicə obyekti olan Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildən 50 çarpayılıq xəstəxana kimi Naxçıvan duz mədəni bazasında fəaliyyətə başlayıb. Mərkəzdə yuxarı tənəffüs yollarının allergik xəstəlikləri müalicə edilir. Müalicənin effekti uşaqlarda 95, böyüklərdə isə 75-80 faiz təşkil edir. Mərkəz dəniz səviyyəsindən 1173 metr hündürlükdə yerləşir. Duzdağ Fizioterapiya Mərkəzində ilin bütün fəsillərində müsbət 18-20 dərəcə temperatur rejimi və təbii ventilyasiya olur.

Naxçıvanda olarkən Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə də tanış olduq. Mərkəzin baş həkimi Heyran Qazıbəyovanın sözlərinə görə, bənzərsiz təbii şəfa mənbəyi olan bu mərkəzdə tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılıb. Ötən il mərkəzin müasir standartlara cavab verən inzibati binasının istifadəyə verilməsi isə bu sahəyə olan dövlət qayğısının əyani ifadəsidir. Bu həm də turist qəbulu üçün imkanları daha da artırdı. Öyrənirik ki, xarici ölkələrdən gələnlər arasında Rusiya, Türkiyə, İran və Qazaxıstan vətəndaşları üstünlük təşkil edir.

Ekoloji təmiz hava, günəş radiasiyasının bolluğu ilə yanaşı, təbii mineral sularla zəngin olması Naxçıvanda sağlamlıq turizminin inkişafına əhəmiyyətli təsir edir. Azərbaycanın mineral su ehtiyatının 60 faizi Naxçıvan Muxtar Respublikasının payına düşür. "Mineral suların təbii muzeyi" adlandırılan muxtar respublikanın 5,5 min kvadratkilometrlik sahəsində 250-dən artıq mineral su mənbəyi qeydə alınmışdır. "Badamlı", "Sirab", "Vayxır", "Gülüstan", "Böyrək suyu" və digər mineral suların bəzilərindən süfrə suyu kimi, bəzilərindən isə müalicə məqsədilə istifadə edilir.

Güclü müalicəvi əhəmiyyətə malik olan yeraltı sərvətlərdən biri də Culfa rayonunda çıxan "Darıdağ" arsenli mineral suyudur. "Darıdağ" suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur. Polşada Kudova, Almaniyada Dürkgeym, Rusiyada Sineqorsk sularının oxşarıdır. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə "Darıdağ" suyu onlardan daha üstündür. "Darıdağ" arsenli termal suyu dayaq-hərəkət sistemi, qoturluq, sarıyara, piodermiya kimi bir çox dəri xəstəlikləri üçün müalicəvi əhəmiyyətə malikdir.

Darıdağ Arsenli Su Müalicəxanası müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Hazırda tikintisi davam edən Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi, həmçinin "Darıdağ" Termal Hotelin tikintisi bu şəfalı suyun müalicəvi



xüsusiyyətlərindən səmərəli şəkildə istifadəyə şərait yaradacaq.

### *Kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənd*

Şahbuz rayonunun Ağbulaq kəndi ölkəmizdə kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənddir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. Şahbuz rayonunun Ağbulaq kəndində kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb.

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi malik olduğu zəruri infrastruktura görə ilin hər fəslində asudə vaxt keçirmək istəyənlər üçün zəngin imkanlar vəd edir. Naxçıvan şəhərindən, təxminən, birsaatlıq məsafədə olan Ağbulağın təmiz və günəşli havası turistləri bura cəlb edən ilk cəhətlərdəndir.

Buradakı istirahət mərkəzi müasir kamp məkanı üçün tələb olunan hər cür rahatlığa malikdir. Öyrənirik ki, istirahət mərkəzinə gələn turistlər üçün ümumi tutumu 76 nəfər olan 38 standart otaq fəaliyyət göstərir. Bütün otaqlar yüksək komfortlu hotel standartlarına uyğun olan şəraitlə təmin edilib. Ağbulağa gəlmiş turistlər 4G sürətli internetə də qoşula bilirlər. Mərkəzdə xizəksürmə xidmətindən başqa turistlərə müxtəlif servislər də təklif olunur. Turistlər əyləncə ilə yanaşı, Naxçıvan mətbəxinin ləziz təamlarından və təbii ərzaq məhsullarından dadmaq fürsəti qazanırlar.

*Ardı 3-cü səhifədə*



Mərkəzdə çalışanların hamısı Ağbulaq və ətraf kəndlərin sakinləridir. Kənd turizminin ən gözəl nümunələrindən olan Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması tək bir kəndin, muxtar respublikanın deyil, ümumilikdə, ölkəmizin inkişafına xidmət edir. Ağbulaq həm yerli, həm də xarici turistlər üçün cazibədar məkana çevrilib. Təmiz hava, təbii qida, yaradılan lazımi infrastruktur imkan verir ki, mərkəz muxtar respublikanın inkişafında xüsusi rol oynasın.

Naxçıvanın digər rayonlarında da kənd turizmi üçün əlverişli imkanlar mövcuddur. Xüsusən qədim diyarın Biçənək, Kükü, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd turizmi inkişaf edib. Həmin kəndlərdə asudə vaxtını səmərəli keçirmək istəyən turistlərə həm də bütün zəruri xidmətlər təklif olunur. Həmçinin ailə təsərrüfatları tərəfindən hazırlanan ekoloji cəhətdən təmiz qida məhsulları və münasib qiymətlər turist məmnunluğunu səciyyələndirən amillərdəndir. Bu baxımdan muxtar respublikanın kənd yaşayış məntəqələrinə gələn turistlər həm də onlarca çeşiddə təmiz ekoloji məhsullarla tanış olmaq imkanı əldə edirlər.

*Ən müasir standartlara cavab verən Ağbulaq Xizək Mərkəzi*

Qış aylarında qar ehtiyatının çox olması isə Ağbulaqda xizəkçilik üçün münbit şərait yaradır. Turizmi daha da inkişaf etdirmək üçün kənddəki istirahət mərkəzinin yaxınlığında dağ-xizək mərkəzinin qurulması da qərara alınıb. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşməsi, qış aylarında qar ehtiyatının çox olması və dağ-xizək mərkəzi üçün müvafiq landşafta malik olması Ağbulaq kəndi yaxınlığındakı ərazinin seçilməsinə əsas verib.

Ağbulaq Xizək Mərkəzi 2021-ci il fevralın 17-də istifadəyə verilib. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən mərkəzdə uzunluğu 1580 metr olan dağ-xizək sahəsi, əyləncə və uşaq parkları, süni göl yaradılıb. Kanat yolunda hər biri 4 yerlik olan 59 oturacaq vardır ki, bu da saatda 1000-dən artıq turistə xidmət etməyə imkan verir.

Ağbulaq Xizək Mərkəzi qışda xizək idman növlərinə maraqgöstərən və hər yaşdan olan insanlar üçün sərfəli qiymətə istirahət və əyləncə dolu zəngin təəssürat vəd edən ideal məkandır. Yaradılmış xizəksürmə infrastrukturu ən müasir komfort, erqonomika və təhlükəsizlik standartlarına



cavab verir. Qış aylarında burada həmişə qar olsa da, xizəksürmə həvəskarlarına davamlı xidmətlər göstərə bilmək üçün süni qar yaratma sistemləri də quraşdırılıb.

Naxçıvanda idman turizminin inkişafı da diqqət mərkəzində saxlanılır. Bu baxımdan Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi muxtar respublikada ənənəvi turizm növlərinin inkişaf etdirilməsi ilə yanaşı, yeni turizm istiqamətlərinin, o cümlədən idman turizminin də inkişafı üçün geniş imkanlar yaradıb. 2021-ci ilin aprel ayından istifadəyə verilmiş Uzunoba Təlim-Məşq İdman Kompleksi Naxçıvanda idman turizminin inkişafı baxımından əhəmiyyətli hadisələrdəndir.

*Naxçıvan nümunələri*

Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, həmçinin pirlər, imamzadələr, qədim məscidlər dünyanın dörd bir yanından gələn zəvvarların ziyarətgahına çevrilib. Əshabi-Kəhf ziyarətgahı ən qədim zamanlardan müqəddəs bir yer, Ulu Tanrıya inam, ümid bəsləyən, ilahi gücə inanan insanların səcdəgahı kimi şöhrət qazanıb. Ziyarətgaha Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər gəlir.

Bütün bunlar onu göstərir ki, Naxçıvanda dini turizmin inkişafı üçün də real imkanlar mövcuddur. Naxçıvanda dini turizmin inkişafı istiqamətində görülən işlər, dini-mədəni abidələrin bərpası və qorunması mənəvi dəyərlərimizin dünyaya tanıdılmasında vasitə rolunu oynayır.

Əsrarəngiz təbiəti, mineral sərvətləri, tarixi-dini abidələri ilə yanaşı, Naxçıvan mətbəxinin zəngin olması da turizmə təsir edən amillərdəndir. Azərbaycan mətbəxinə məxsus yeməklərlə yanaşı, Naxçıvan mətbəxinin özünəməxsus yeməkləri də var. Arzuman küftəsi, balqabaq doldurması, maş şorbası, müxtəlif növ plovlar, qurut aşı, qovurma, dikçə dolması, kabablar, xoşablar, ballı qayğanaq, sucuq, alana, şirniyyatlar və sair. Naxçıvan mətbəxi öz zənginliyi, heyrətamiz dadı ilə qonşu xalqların mətbəxinə də təsir edib. Naxçıvanın ekoloji təmiz havası, Günəş şüasının bolluğu və digər amillərin təsiri nəticəsində bu torpağın yetirdiyi meyvə, tərəvəz və digər məhsullar öz dadı və keyfiyyəti ilə fərqlənir.

Naxçıvan turizmi davamlı inkişaf yolundadır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublika sürətlə turistlər üçün daha cəlbedici bölgəyə çevrilir. Yaxın gələcəkdə isə turizmin muxtar respublikanın ümumi daxili məhsulunda payının daha da yüksələcəyini söyləmək olar. Zəngəzur dəhlizinin reallaşması ilə Naxçıvana gələn turistlərin sayı da dəfələrlə artacaq.

**Rəşad CƏFƏRLİ**

***"Azərbaycan" qəzeti, 16 fevral 2022-ci il***

## Pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib



*Naxçıvan Müəllimlər İnstitutunda 2021-2022-ci ilin yaz semestri üçün nəzərdə tutulmuş pedaqoji təcrübənin başlanğıc konfransı keçirilib.*

Konfransı giriş sözü ilə açan Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov gənc nəslin yetişdirilməsi sahəsində yaradılan yüksək şəraitdən, göstərilən hərtərəfli dövlət qayğısından danışıb və qeyd edib ki, pedaqoji təcrübə kadr hazırlığının ən vacib sahələrindən biri olmaqla yanaşı, ali təhsil müəssisələrinin tədris planında xüsusi önəm daşıyan bir prosesdir. Rektor diqqətə çatdırıb ki, tələbələr pedaqoji təcrübədə məktəb müəllimlərinin dərslərində iştirak edərək tədris sistemini müşahidə etməklə bir çox sosial-pedaqoji dəyərlərə yiyələnəcəklər. Proqram materiallarının perspektiv və cari planlaşdırılmasına dair vərdişlər qazanacaq, qazandıqları nəzəri bilik, bacarıq və vərdişləri tətbiq etməklə özlərini bu prosesdə sınayacaqlar.

Konfransda Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək təcrübənin keçiriləcəyi ümumtəhsil məktəblərinin şəraitindən, maddi-texniki bazasından və tələbələrin pedaqoji mühitə uyğunlaşması, pedaqoji biliklərini inkişaf etdirmələri üçün pedaqoji təcrübənin mühüm əhəmiyyətindən danışıb. Qeyd edib ki, metodist müəllim, pedaqoji rəhbər və təcrübəçilərin məktəbə gəlişi, tədris müəssisələrində daha çox məsuliyyət və yaradıcılıq əhval-ruhiyyəsi doğurur, ali və ümumtəhsil məktəbləri arasında birgə fəaliyyət imkanı yaranır. Nazir vurğulayıb ki, təcrübə müddətində Təhsil Nazirliyi tərəfindən tələbələrin yüksək səviyyədə praktik iş qabiliyyətinə yiyələnmələri diqqətdə saxlanılacaq.

İnstitutun tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev məlumat verib ki, bakalavriat səviyyəsinin IV-V kurslarında müxtəlif ixtisaslar üzrə təhsil alan 224 tələbə Naxçıvan şəhər 4, 5, 8, 11, 12 və 14 nömrəli, həmçinin Naxçıvan Qızlar Liseyi və Heydər Əliyev adına tam orta məktəblərində və IV kurs Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə 12 tələbə Naxçıvan şəhər 7, 10 və 12 nömrəli uşaq bağçalarında fevralın 16-dan mayın 24-dək 14 (on dörd) həftəlik pedaqoji təcrübə keçəcəklər. Ümumilikdə, 236 tələbənin təcrübə keçməsi planlaşdırılıb. Çapay Quliyev təcrübə müddətində orta ümumtəhsil məktəbləri və məktəbəqədər təhsil müəssisələri əməkdaşlarının yerinə yetirəcəyi vəzifələr haqqında geniş məlumat verib.

Sonra pedaqoji təcrübə rəhbəri Təranə Əliyeva təcrübənin təşkili ilə bağlı görülmüş işlərdən, Təbiət və incəsənət fakültəsinin dekanı Rövşən Vəliyev və Pedaqoji fakültənin dekanı Samirə Həsənova isə Pedaqoji təcrübə müddətində dekanlıqların qarşısında duran vəzifələrdən danışıb.

Konfransın yekununda pedaqoji təcrübəyə başlayan tələbələrin sualları cavablandırılıb.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanovanın 60 illik yubileyi münasibətilə tədbir keçirilib.*

## Etnoqraf alimin 60 yaşı qeyd edilib



Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev diqqətə çatdırıb ki, bölmədə fəaliyyət göstərən, ömrünü Naxçıvanşünaslığın tədqiqinə həsr edən alimlərin yubileylərinin keçirilməsi artıq ənənə halını alıb. Belə tədbirlərin keçirilməsi elm adamlarına göstərilən diqqətlə yanaşı, həm də gənc tədqiqatçılar üçün stimul mənbəyidir.

Akademik yubilyarın həyat və elmi fəaliyyətinə nəzər salaraq bildirib ki, Aytəkin Qəhrəmanova AMEA Naxçıvan Bölməsindəki fəaliyyəti dövründə özünü məsuliyyətli elmi işçi, elmə böyük həssaslıqla yanaşan tədqiqatçı kimi təsdiq edib.

İsmayıl Hacıyev səmərəli elmi fəaliyyəti və anadan olmasının 60 illiyi münasibətilə Aytəkin Qəhrəmanovanı AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edib.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucov alimin həyatı və fəaliyyəti haqqında ətraflı məlumat verib.

Məruzəçi bildirib ki, Aytəkin Qəhrəmanova 1962-ci ildə Şahbuz rayonunun Kəndşahbuz (indiki Şahbuzkənd) kəndində ziyalı ailəsində dünyaya göz açıb. Orta təhsilini burada başa vurduqdan sonra zəhmətsevər gənc 2 il üzümçülük sovxozunda çalışıb. 1980-1985-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq və biblioqrafiya fakültəsində təhsil alıb. Universiteti bitirdikdən sonra Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında şöbə müdiri, Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatında redaktor, Naxçıvan Qarnizonunun tam orta məktəbində müəllim və kitabxana müdiri, Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, İ.Qasımov adına Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin müdiri kimi məsul vəzifələrin öhdəsindən layiqincə gəlib. O, 2019-cu ilin iyun ayından AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsində fəaliyyətini davam etdirir.

A.Orucov yubilyarın 2010-cu ildə uğurla müdafiə etdiyi "Cəlil Məmmədquluzadə yaradıcılığında etnoqrafiya məsələləri" adlı dissertasiya işi haqqında məlumat verib. Qeyd olunub ki, Aytəkin Qəhrəmanovanın qısa müddətdə ərsəyə gətirdiyi 1 monoqrafiya, 30-dan artıq elmi məqaləsi ilə etnoqraf alim kimi formalaşdığını sübuta yetirmişdir. O, hazırda nəşrə hazırlanan "Naxçıvan etnoqrafiyası" ikicildliyinin və Şahbuz rayonunun tarixi ilə bağlı kitabın həmmüəllifləri ndən biridir.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli, Arxeoloji xidmət şöbəsinin müdiri, dosent Zeynəb Quliyeva, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru, dosent Elxan Məmmədov və yubilyarın qızı Nigar Abdullayeva tədbirdə çıxış ediblər.

Sonda yubilyar Aytəkin Qəhrəmanova göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Əmək pensiyaçılarına indeksləşdirilmə ilə bağlı əlavə vəsaitin və 2022-ci ilin I rübü üzrə maddi yardımın ödənilməsi başa çatdırılıb

Əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə pensiyaların mütəmadi olaraq artırılması həyata keçirilən sosial islahatların əsas istiqamətlərindəndir. Azərbaycan Respublikası Prezidentinin "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 2022-ci il 8 fevral tarixli Sərəncamına əsasən ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq 2022-ci il yanvarın 1-dək təyin edilmiş əmək pensiyalarının sığorta hissəsinin məbləği 3,4 faiz indeksləşdirilərək artırılıb. Bundan əlavə, əmək pensiyaçılarına (qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla) rüb ərzində 50 manat məbləğində, ümumilikdə, il ərzində 200 manat olmaqla maddi yardım ödəniləcəkdir.

Sərəncamın icrası ilə bağlı "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu" publik hüquqi şəxs tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Muxtar respublika üzrə əmək pensiyaçılarının pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsindən və maddi yardımların ödənilməsindən irəli gələn vəzifələr barədə şəhər və rayon şöbələrinə müvafiq tapşırıqlar verilib. Fond tərəfindən əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi muxtar respublika üzrə 40 min əmək pensiyaçısına şamil edilib. İndeksasiyanın həyata keçirilməsi məqsədilə fondun büdcəsindən hər ay 390 min manat, maddi yardımın ödənilməsi üçün isə rübdə 2 milyon manat əlavə vəsait ayrılıb. Qısa müddət ərzində fondun yerli qurumları tərəfindən pensiyaların sığorta hissəsinin indeksləşdirilməsi, həmçinin müvafiq şəxslərə maddi yardımın ödənilməsi prosesi başa çatdırılıb. Hesablanmış vəsaitlər pensiyaçıların ödəniş kartlarına və ya qeydiyyatda olduqları ünvanlarının poçt bölmələrinə köçürülüb.

Əmək pensiyalarının sığorta hissəsində müvafiq artımların aparılması ilə yanaşı, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublikada fərdi uçot sistemində qeydiyyatda olan 182 min 512 sığortaolunanın fərdi hesabının sığorta hissəsində toplanan pensiya kapitalı məbləğləri də indeksləşdirilməklə 6,7 faiz artırılıb.

Qeyd edək ki, 2022-ci il ərzində nəzərdə tutulan digər rüblərin maddi yardımları əmək pensiyaçılarına hər rübün birinci ayında – aprel, iyul və oktyabr aylarında ödəniləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı örnəklərinin toplanması, nəşri və təbliği məsələləri hər zaman əsas məsələlərdən biri olmuşdur. Xalq yaradıcılığı günlərinin keçirilməsi ilə bağlı 2009-cu il 7 fevral tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı Sərəncam bu sahədə çoxşaxəli və təqdirəlayiq işlərin həyata keçirilməsi ilə nəticələndi. Eləcə də 2021-ci il sentyabr ayının 21-də Ali Məclis Sədri AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə keçirilən görüşdə Naxçıvanşünaslıq elmi istiqamətinin inkişaf etdirilməsi ilə əlaqədar tövsiyə və tapşırıqlarını verdi. Bu mühüm tövsiyə və tapşırıqlardan biri də milli mədəniyyətimizi ehtiva edən məsələlər idi. Bunlar hər bölgə üzrə folklor örnəklərinin, o cümlədən min illər ərzində formalaşmış xalq deyimlərimiz – atalar sözləri, tapmacalar, məsəllərin toplanması məsələləri idi. Bölmədə həmin tapşırıqların icrası istiqamətində işlər görülməkdədir.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvan folklor aləmi xalq deyim və ifadələri ilə zəngindir



Qeyd edək ki, Azərbaycan folklorunda yer alan kiçik janr nümunələri öz qədimliyi və kiçik ölçüdə böyük məna tutumu ilə həmişə maraq cəlb edib. Onların hər biri xalq təfəkkürünə məxsus dərinlikləri ifadə edir. Atalar sözü, məsəllər, alqış və qarğışlar, ovsunlar, türkəçarələr, dualar, andlar, yuxuyozmaları və sair kimi örnəklərdə xalqın zaman-zaman düşüncə süzgəcindən keçib müasirliyə doğru yol alan, müasir elementlərlə cilalanan etnik düşüncə məqamları öz əksini tapmaqdadır. Kiçik janrların içərisində yeri gələndə hər zamanda, dövrdə aktual olan deyimlər də mövcuddur. Deyimlər sırasına aid edilə bilən örnəklər çox zaman ayırd edilmək problemi ilə üzləşir. Əsasən, atalar sözləri, məsəllər, alqış və qarğışlar, yeri gələndə lətifələrin əsasını təşkil edən, əsas ideyanı ifadə edən cümlələr deyimlərlə oxşarlıq təşkil edir.

Öncə qeyd edək ki, deyim klassik folklordan fərqli olaraq zamandan irəli gələrək, dövrlə, necə deyərlər, "ayaqlaşan" nümunələrdir. Lakin deyimlərdə nə qədər zamanla uyğunlaşma müşahidə olunsa da, kökündə hansısa klassik folklor faktı dayana bilir. Əsasən, burada bir gülüş, sarkazm öz əksini tapır. Lakin yeri gəldikdə, əvvəldə haqqında bəhs etdiyimiz hikmətli sözlər də xalq dilində aktivləşərək deyimləşə bilər.

Deyimlər, ümumilikdə, folklor faktıdır. Onu, əsas etibarilə, xalq yaradır, xalqın ümumfəaliyyətinin, ümumtəfəkkürünün məhsuludur. Lakin bu heç də o demək deyil ki, deyimlər yalnız və yalnız folklorun – şifahi ədəbiyyatın məhsuludur. Yazılı ədəbiyyat nümunələrinin də içərisindən əsərin müəllifi olan yazıçı və şair tərəfindən deyil, məhz xalq tərəfindən çıxarılan, dillərdə əzbər olmuş ifadələr də zaman-zaman deyim xarakterini daşıyır. Baxmayaraq ki, həmin ifadənin konkret bir müəllifi vardır: o müəllifli bir əsərin içərisindən seçmədir, amma onu bilərəkdən kimsə seçmir, məhz xalq təfəkkürü "seçir". Zaman-zaman həmin ifadə deyimləşərək folklor faktına çevrilir, hətta uzun zaman dillərdə yaşayan bu ifadələr tədricən atalar sözü xarakterini də qazana bilir. Elə atalar sözləri var ki, onlar məhz hansısa ədəbi əsərin bir ifadəsi olub, lakin xalq dilinə düşən bu ifadə uzun zaman kəsiyində öz aktuallığını qoruyub, dillərdə aktual işlənib, nəticədə, atalar sözü möhürünü elə xalq tərəfindən alaraq folklor faktına çevrilib.

Deyimlərin ərazilərə məxsus olaraq müxtəlifliyini, lakin eyni məna tutmuna malik örnəklərin bir çox məkanlara uyğun olaraq müxtəlif leksik fərqliliklərlə işlənməsini də nəzərə almaq lazımdır. Belə ki, Türk dünyasına məxsus xalq deyim və ifadələri vardır ki, onlar ümumtürk təfəkkürünə məxsusdur, onlardan müxtəlif türk xalqları müxtəlif zamanlarda istifadə edib və ya etməkdədir; elələri var ki, hətta eyni leksik tərkiblə müxtəlif hadisə ərəfəsində ifadə edilə bilir. Bu da həmin xalqın hadisələrə yanaşma, baxış fərqliliyindən irəli gələ bilər. Lakin əksəriyyət etibarilə ümumtürk deyim və ifadələri eyni baxış nöqtəsini ifadə edərək eyni məqamda işlədilir. Müşahidə edilən məqamlardan biri də odur ki, bir türk xalqına məxsus deyim digər xalqlara da keçərək işlənmə aktuallığı qazanır. Biz bunu müasir günümüzdə də izləyirik: "Nooldu Paşinyan?" – cənab Prezidentimiz tərəfindən II Qarabağ müharibəsinin qalibiyyətini tamlığı ilə özündə ifadə edən bu ritorik suallı ifadə digər qonşu və qardaş Türkiyə Respublikasına da asanlıqla keçdi. Artıq Türkiyə ərazilərində də bu ifadə xalqın dilinə keçərək, sinəsinə döyüb, mənəm-mənəmliyini xudbinlik və lovğalıqla nümayiş etdirən insanlara ünvanlanır, məhz bu ifadə ilə həmin insan tənqid atəşinə tutulur. Və tədricən bu ifadə daha da aktivlik qazanmaqdadır.

Qədim yaranma tarixinə malik deyimlər vardır ki, günümüzdə də xalq arasında işlənməkdədir. Bunların çoxunun qədimliyi ondan aydın olur ki, həmin deyimlər, eləcə də qədim tarixə malik mərasim və bayramlarla əlaqəlidir. Məsələn, xalq arasında aktiv işlənməkdə olan "Gəlir (edir, etsin) gəlsin, gəlmir (etmir, etməsin) illərin axır çərşənbəsinədək heç gəlməsin (etməsin)". Ekvivalenti "Edir etsin, etmirsə, cəhənnəmə kimi etməsin" ifadəsi olan sözügedən örnək, əslində, özündə qarğış tutumunu mühafizə edir, yəni əsasən, qarğış ağırlıqlıdır. Bu deyim birinin qarşıdakına edəcəyi hər hansı bir işlə söz verib, lakin sözünə əməl etmədiyi təqdirdə "zərərçəkmiş" tərəfindən söylənilir. Məlum olduğu kimi, axır çərşənbə türk xalqları tərəfindən böyük coşqu və sevinclə qarşılanır. Qədim türk mifik düşüncəsinə əsasən bu zamanda – ilin axır çərşənbəsində xoş danışıb-xoş gülmək mütləqdir. Məlum mifoloji təsəvvürdən irəli gələrək söyləmək mümkündür ki, ilin ən son çərşənbəsi – ilaxır çərşənbə ilin həm də ən ağır çərşənbəsidir. Bu həm sonunculuq məqamı ilə də bağlı ola bilər. Yəni bütün ağırlıqlar məhz sonuncu çərşənbənin üzərinə töküldüyündən xalq təfəkküründə bu günü xoş qarşılamağın mütləqliyi haqqında düşüncələr formalaşıb. Bu gün bəd ruhlar olduqca aktiv olur. Və bu mifoloji inanışlara görə, həmin bəd ruhları kədərləndirmək üçün insan övladı deyib-gülməli, ləziz təamlarla ağzını və əhvalını tox tutmalıdır. Evlərdən yalnız xoş söz sədası gəlməlidir. Bu da ilin ən ağır gününün ağırlığını örtbasdır edir. Növbəti ilə ruh yüksəkliyi ilə qədəm qoyulur. İlin axır çərşənbəsi insanların düşüncəsində ilin ən ağır çərşənbəsi təsiri yaratdığından bəyənilməyən hərəkəti, yerinə yetirilməyən əməli, verilən sözdən, əhd-peymandan qaçmağı qədim insan ilin ağır çərşənbəsi ilə "üzləşdirir".

Mifoloji ağırlıqlı deyimlərin dilimizdə işlənmə məqamı daha yüksəkdir. Muxtar respublikamızın ərazilərində çox rastlaşdığımız örnəkdə deyilir: "Ayca gözəlliyin olunca mərciməkcə bəxtin olsun". Göründüyü kimi, müxtəlif zamanlarda Ay və Günəş, türk mifoloji sistemindən də məlum olduğu kimi, qədim türkün inanc yeri, tapındığı obyektlərdən olub. Dünyanın yaranmasında iştirak edən Ay, Günəş, ulduzlarla bağlı inanclar mifoloji dünyagörüşdə yer almaqdadır. Ayın üzündəki ləkə, Günəşin ayın sevgilisi, bəzi vaxtlarda isə bacısı olduğu haqqında mifik düşüncələr sonrakı mərhələlərdə kökündə məhz bu və buna bənzər düşüncələrin dayandığı deyim və ifadələrin yaranmasını şərtləndirib. Eləcə də səma cisimlərinə tapınma dövrünün məhsulu olan, lirik növün janrlarından sayılan bir bayatının iki misrası Naxçıvan əhalisinin dilində aktiv işlənərək deyim xüsusiyyətini qazanmaqdadır:

*Ulduz gəlin, ay gəlin,*
*Yoxdur sənə tay, gəlin.*

Eləcə də hami ruhlar və digər mifoloji obrazların adlarının əks olunduğu deyim və ifadələr də bu miflərin ölümsüz olduğunu, heç zaman itib-batmayacağını sübut edir. "Elə bil Hal nənəsidir", "Qaraçuxan yatdı, sən də yat", "Bərəkətinə Xızır əli dəyibdi" kimi örnəklər bu qəbildəndir. Bildiyimiz kimi, Hal qədim türk mifoloji sistemində hamilə və ya zahı qadınlara ziyan vuran, onların ciyərini suya çəkib özünə və ya balalarına yem edən qadın cildinə düşmüş yekəpər görkəmə malik mifoloji obrazdır. Halın xarici görkəmindəki qadına xas təsvirdən irəli gələn bənzətmə sonrakı dövrdə də xalq dilinə düşmüşdür. Bir qadın həddən artıq hündür və xalq dili ilə desək, canlı-başlı olanda, yəni ətrafa öz görkəmi ilə xoşagəlməz təsir bağışlayanda bu deyim Naxçıvan əhalisi tərəfindən ilkin reaksiya kimi belə təqdim olunur: "Elə bil Hal nənəsidir", və ya Qaraçuxanın xalq təsəvvüründə bəxt, tale hamisi olduğu haqqında mifoloji düşüncələr mövcuddur. Bir çox alimlər bu haqda maraqlı araşdırmalar aparıb. Folklorşünas C.Bəydili Qaraçuxanı yazır ki, Qaraçuxa – Azərbaycan türkləri arasında yayılaraq gözəgörünməzlərdən olduğuna inanılan, "övliya" adı ilə də bilinən demonoloji varlıqdır. Bəxt və tale anlayışları ilə əlaqələndirilir. Qaraçuxa adamla gəzib-dolanmırsa, o adamın bəxti yatıbdı" – mənasında filankəsin Qaraçuxası yatıbdı" – deyərlər. İnanışa görə, Qaraçuxa övliyadır". Mifoloji düşüncədə Xızır yaşıllıq, yeni həyat, bolluq, bərəkət bəxş edən mifik obrazdır, Peyğəmbərdir. Xalq inanar ki, mübarək günlərin birində Xızır kimin evinə gələrsə, ora qədəm qoyarsa, həmin ev bolluq, firavanlıq içində həyat sürər. Və ya zoomorfik obrazlarla – qurd, at, öküz, qu quşu və sairlə bağlı dildə dolaşan deyim və ifadələr də zoomorfik görüşləri özündə ehtiva edən mətnlərin xalq təsəvvüründə yaşayan "özətidir". "Qurdla qiyamətə qalıb" ifadəsi Azərbaycanın bir çox ərazilərində, o cümlədən Naxçıvan Muxtar Respublikasının bölgələrində aktiv şəkildə işlənməkdədir. Yaşı çox, uzun ömür sürmüş, geniş dünyagörüşü və həyat təcrübəsi olan insan üçün bu xalq tərəfindən ünvanlanan "rəydir". Bu "rəy" insan haqqında həm mənfi, həm də müsbət xarakter daşıya bilər. Bir mənada, insanın ağlı dünyagörüşünə, zəngin həyat təcrübəsinə malik olduğunu izah edir. Digər mənada isə uzunömürlü olub, lakin heç bir yaxşı əməl sahibi olmadığını özündə ifadə edir. Lakin hər iki halda ifadənin tam əsasında qurdla bağlı mifoloji düşüncələr dayanır.

Xalq ağzında işlənən elə ifadələr var ki, onlar müəyyən dövrlərdə televiziya ekranlarında mütəmadi şəkildə təqdim edilən filmlərdən götürülmüş ifadələrdir. Ya hansısa obrazın dilindən deyilən ifadə o obrazı canlandıran aktyor və ya aktrisanın yüksək səriştəsinin nəticəsidir ki, ifadə dillər əzbərinə çevrilir. Ya da o ifadə həmin vaxt xalqı düşündürən və ya narahat edən ümumictimai məsələyə kəskin qamçı kimi qarşılanır. Və belə ifadələri xalq həmin andan etibarən bəyənir. Getdikcə belə ifadələr işlənmə tezliyinə, aktivliyinə görə deyimləşə, deyim xarakteri qazana bilir. Məsələn: məşhur "Axırıncı aşırım" filmində söylənən "Bala, bilməmisən, səhv etmisən, tüfəngi götür keç biz tərəfə" ifadəsi artıq deyim funksiyasını qazanmışdır. Bu kimi el ağzında işlənən nümunələr saysızdır.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz tərkib hissəsi olaraq hər zaman milli-mənəvi dəyərlərin də mühafizəkar



şəkildə yaşadıldığı aktiv folklor məkanıdır. Demək olar ki, Azərbaycan folklorunda məlum janrların hamısına məxsus örnəklər bu məkanda xalq yaddaşında yaşamaqdadır. Təqdirəlayiq də burasıdır ki, bu məkandakı folklor örnəkləri təkcə toplularda əks olunmur, yaşlı nəslin folklor yaddaşında yaşamır, həm də onların əksəriyyəti aktiv icra ortamındadır. Məsələn, mərasim folklor örnəkləri ərazidə xalqa məxsus mərasim faktlarının icrası zəminində istifadə olunur, yaşadığı yaddaşdan digər yaddaşlara köçürülür. Hətta burada əraziyə məxsus örnəklərə təsadüf edilir ki, bunlar xalq təfəkkürünün məhsulu kimi hansı janra aidiyyətliyi ziddiyyət qarşısında qalır. Bu da məkanın zəngin və aktiv folklor mühitinə malik olduğunu ifadə edir. Burada mövcud hikmətli sözləri çox ifadə edərək, hər hansı hadisəylə uyğunlaşdırmaq bacarığı, qabiliyyəti diqqət cəlb edir. İnsanlar hadisə və məsələlərə öz reaksiyasını təkcə psixoloji və fizioloji reaksiyası ilə deyil, həm də mənəviyyatın, dilin, nitqin zənginliyini ifadə edən atalar sözləri, məsəllər, deyim və xalq ifadələrində olduqca sürətli şəkildə təqdim edirlər. Bu folklor nümunələrinin toplanılması və tədqiqi isə muxtar respublika rəhbərinin də biz folklorşünasların üzərinə qoyduğu ümdə vəzifədir.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

# Finalçıların adları məlum olub



Naxçıvan Şahmat Mərkəzində keçirilən kişilər arasında şahmat üzrə Azərbaycan çempionatında finala yüksələn zəka sahiblərinin adları məlum olub.

İlk finalçı ikinci oyunda da qələbə qazanan qrossmeyster Misrətdin İsgəndərov (2566) olub. Onun rəqibi qrossmeyster Aydın Süleymanlı (2530) qara fiqurlarla mütləq qələbə qazanmalı idi ki, yalnız bu halda görüş "uzatmağa" qalacaqdı. Lakın Misrətdin qaraların oyunu mürəkkəbləşmə cəhdlərinin qarşısını alıb və sonda "h5" xanasında dayanan topu həbs etməklə oyunun taleyini həll edib.

İkinci görüşdə isə qaralar ilə oynayan beynəlxalq usta Məhəmməd Muradlı (2528) məqsədinə nail olub və qrossmeyster Vasif Durarbəyli (2615) üzərində qələbə qazanaraq hesabı bərabərləşdirib. İki klassik oyun heç-heçə başa çatdığından növbəti oyun keçirilib. Bu görüşdə Məhəmməd Muradlı qalib gəlib və adını finala yazdırıb.

17-18 fevral tarixlərində çempionatın medalçılarının adları məlum olacaq.

**✍ Ceyhun MƏMMƏDOV**

***Elan***

"Döyüşçü" Əlillərin Yüngül Atletika İdman Klubunun möhür, ştampı itmiş və klubun fəaliyyəti dayandırılır.

* * *

"Qayğı" Əlillərin Yüngül Atletika İdman Klubunun möhür, ştampı itmiş və klubun fəaliyyəti dayandırılır.

***İtmişdir***

Şərur rayonunun Qarahəsənli kəndində qeydiyyatda olan Rüstəmov Sadıq Emaddin oğluna məxsus 68BH065 nömrəli minik avtomobilinin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Onur Elçin oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Telli Məmmədova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 155**